# HƏZİYEV XƏYAL FEYRUZ OĞLU

**Əsgər Xəyal Həziyev 20.12.1987-ci il tarixdə Ağcabədi şəhərində anadan olmuşdur. Vətən Müharibəsində Cəbrayıl rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, 15.10.2020-ci il tarixdə Ağcabədi şəhəri Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.**

*Bir əsgər şəhid olanda*
*Üz tutub gedirəm, hanı, yol handa...*
*Mən kimə hönkürüm içim dolanda.*
*Cəbhədə bir əsgər şəhid olanda,*
*Sanıram o güllə balama dəyir.*

*Ayaz Arabaçı*

Vətənpərvər şairin şəhidlərin dünyamızda tutduqları yerə işarə edən bu misaralar həqiqətən də şəhidlik zirvəsinə ucalan əsgərlərimizin bizə nə qədər yaxın, doğma olduğuna sirayət edir. Həmyerlimiz Xəyal Vətən müharibəsində qəhrəmanlıqla vuruşub, şəhadətə qovuşub. Onun cəmi 3 yaşı olanda bu doğum günü xalqımızın tarixinə qara hərflərlə yazıldı. 1990- cı il 20-si Yanvar hadisələri azadlığımız, müstəqilliyimiz uğrunda canını fəda edən həmvətənlərimizin anım günü kimi yaddaşımızda özünə məskən saldı.

...Orta məktəbi bitirəndən sonra Xəyal Bakıya gedir və burada texniki peşə məktəbində qaynaqçı peşəsinə yiyələnir. 2005-2006-cı illərdə ordu sıralarında xidmət edən Xəyal elə o vaxt əsgərlikdə bir hərbçi kimi bütün çətinliklərə mətanətlə sinə gərir. Atası danışır ki, Xəyal Murovun düz başında postda qarovul çəkirdi. Ora dəhşətli dərəcədə soyuq, şaxtalı, küləkli olurdu. Mən də bir ata kimi komandirlə danışıb, onun aşağıda, sakit yerdə xidmət etməyinə nail olmaq istədim. O, isə bundan duyuq düşüb çox pis hirsləndi. Qətiyyətlə söylədi ki , ata, mən düz xidmətin sonuna kimi başıqarlı Murovda xidmət edəcəyəm. Mən düşmənə o zirvədən baxacağam. Əgər məni başqa yerə keçirtmək istəsəniz özümü Murovun başından atacağam. Xəyalla mən də razılaşdım. O, xidmətin sonuna qədər çətin iqlim şəraitinə malik olan Murov yüksəkliyində xidmət etdi.

Xəyal Vətən müharibəsinə 2020-ci il sentyabrın 29-da gedib. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ağcabədi rayon Şöbəsinin əməkdaşlarını öz çılğınlığı, iradəsi, qətiyyəti ilə ayağa qaldırıb. Onlara gözləyə bilmədiyini, düşmənlə üz-üzə vuruşmağa tələsdiyini bildirib. Söyləyib ki, məni niyə əsgərliyə apardınız, amma indi müharibəyə getməkdə ləngidirsiniz. Axı indi Qarabağ döyüş meydanıdır. Xalqın vətənpərvər övladları indi ön cəbhədə olmalıdırlar. Xəyalı sakitləşdirməyin mümkün olmadığını görən hərbçi rəhbərlər onu avtobus birinci mindiriblər ki, qoy rahat olsun...

Füzuli, Cəbrayıl, Xocavənd istiqamətində vuruşan Xəyal Xocavənd ətrafında gedən qızğın döyüşdə qəhrəmanlıqla həlak olur. Tanrının dərgahına üz tutan Xəyal Ağcabədidə Şəhidlər Xiyabanında dəfn olunub. Xəyalın döyüş yoldaşı, rayonumuzun Qaradolaq kəndindən olan Daşqın söyləyir ki, Xəyal həddən artıq vətənpərvər idi. Elə irəliyə, düşmən üzərinə atılmağa can atırdı. Bir yerdə qərar tuta bilmir, döyüşlər arasında olan qısa fasilə onu dəli edirdi. O, bizə deyirdi ki, torpaqlarımızda düşmən at oynadır, sizsə burada sakit oturmusunuz. Xəyal çox çılğın və dəliqanlı idi. O, düşmənin üzərinə sadəcə hücüm etmirdi, şığıyırdı. Bir döyüş yoldaşı kimi, o, bizə vətənpərvərlik nümunəsi, örnək idi. Allah rəhmət eləsin. Xəyal kimi oğlan ölməz, o, şəhidlik zirvəsindədir. Əziz xatirəsi də həmişə bizimlədir.

Xəyalın atası usta Feyruz deyir ki, o, məndən yaşda xeyli kiçik olsa da, məndən yaxşı usta idi. Qaynağçı sənətini incəliklərinə qədər mənimsəmişdi. Ev tikirdi, evlər təmir edirdi. Hərtərəfli usta idi Xəyal. İşində keyfiyyətlə, ustalıqla bərabər, öz şəxsi yanaşması da üstünlük göstərirdi. Yaxşı əlavələri, yeni fikirlərini işində tətbiq edirdi. Bir mükəmməl usta kimi həmişə adamlar növə ilə onun haçan azad olunacağını gözləyirdilər...

Feyruz dayı onu da əlavə etdi ki, Xəyalı fikrindən döndərmək çox çətin idi. Uşaqlıqdan dilinin əzbəri olan sözləri vardı: Bu torpaqdan ötrü ölməyə dəyər. O, belə də etdi: Şəhid olub, yüksək zirvəyə ucaldı. Allah Xəyalıma, bütün şəhidlərimizə rəhmət eləsin. Onlar bizim üzümüzdəki o qara ləkəni sildilər. İndi üzümüz ağdır. Təsəllimiz də



odur ki, övladlarımızın qanı bahasına olsa da torpaqlarımız artıq azad nəfəs alır. Bunun özü böyük qələbədir. Xəyalın cəbhə dostu, Beyləqanın Əlinəzərli kəndindən olan Ağayev Cəsur Heydər oğlu onun haqqında ağızdolusu danışır: Mənim adım Cəsurdur, amma Xəyalın özü cəsur idi. Mülki həyatda hərtərəfli usta olan Xəyal cəbhədə də hər şeyi bacarırdı. Olduqca vətənpərvər, torpaq sevgili, qorxmaz və igid bir oğul idi. Həqiqətən böyük usta olduğunu cəbhədə də sübut etdi. Orduda az müddət ərzində iki ləqəbi vardı. Ona istehkamdağıdan deyirdilər. O, istehkama hardan və necə yaxınlaşmağı, onu dağıtmağın yollarını yaxşı bilirdi. Onun hər şeyin necə və nə vaxt baş verəcəyini qabaqcadan bilməsinə görə ləqəbi Qoca idi. Hətta yaşda xeyli böyük olanlar da ondan məsləhət alır, fikrini öyrənərdilər. O, sanki müdrik bir qoca idi... Üstü həmişə qumbara ilə dolu olurdu. Qumbaraların ona rahatlıq verməyib, mane olduğunu deyəndə, xəfifcə gülümsəyib, ehtiyat igidin yaraşığıdır, qoy üstümdə hazır olsun. Heç bilirsiniz, bu qumbaralar neçə erməni leşi deməkdir, deyə söyləyərdi.

... Bir dəfə düşmənin pusqusuna düşdük. Ermənilər gülləni başımıza yağış kimi yağdırırdılar. Xəyal bunu görüb sağ cinahdan, strateji cəhətdən əlverişli olan, düşmənin ağlına gəlməyən hədəfdən onlara hücum eylədi və bizi xilas etdi. Sonra özü kimi gənc 4 nəfəri də götürüb düşmən üzərinə getdi. Hətta komandirimizi də onlarla getməyə qoymadı. Bizlərə qətiyyətlə geridə qalmağı məsləhət gördü. Dedi ki, sizin körpələriniz var, dünyanın işin bilmək olmur. Balalarınız yetim qalmasın . Qoy biz subay oğlanlar irəliyə gedək. Hər şeyi uzaqdan olsa da, görmək olurdu. Xəyalgil xeyli erməni məhv etdilər. Birdən hardansa minaatanın qəlpələri səpələndi. Xəyalgilin 5-i də bir göz qırpımında həlak oldular. Allah onların hamısına rəhmət eləsin. Mən və sağ qalan yoldaşlarım onlara ömür boyu minnətdarıq.

**Bu torpağın göy üzü də şəhidlərimizin ölməz xatirəsi önündə baş əyir, onların ruhları ilə yanaşı addımlayırlar. Göy üzü qürbət olsa da:**

*Sinəsini deşib süngü,*
*açılan lalədi sanki.*
*Göy üzü qürbətdi ona*
*ruhu canından süzgün...*

**Adil MİSİRLİ**